AZƏRBAYCAN
RESPUBLİKASI
VERGİLƏR
NAZİRLİYİ

# Nağd Pul Hesablaşmalarının Aparılması

#17

Dövlət
naminə

www.taxes.gov.az

**Pərakəndə ticarət və (və ya) ictimai iaşə sahəsi üzrə fəaliyyət göstərirsinizsə, bilməlisiniz ki...**

**Aşağıdakı fəaliyyət növləri istisna olmaqla**, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmalarını Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsilə həyata keçirməlisiniz:

- Qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
- Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
- Səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;
- Qiymətli kağızların və lotereya biletlərinin satışı;
- Elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti.

**Nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blankları təqdim etməli və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən olunmuş məlumatların əks etdirilməsini təmin etməlisiniz.**

# Nəzarət-kassa aparatının çeklərində əks etdirilməli məlumatlar

VÖEN

- Vergi ödəyicisinin adı və VÖEN-i;
- Çekin vurulmasının tarixi və saatı;
- Təsərrüfat subyektinin (obyektinin) adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan;
- Malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği);
- Gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi;
- Nəzarət-kassa aparatının markası və zavod nömrəsi;
- Nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti);
- Malın sürətli məlumat kodu (Quick Reponse Code).

# Nəzarət-kassa aparatı işləmədikdə...

İstismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi orqanlarına dərhal məlumat verilməklə, nəzarət-kassa aparatından istifadə müvəqqəti dayandırılmalı və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatı nəzarət-kassa aparatı işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabında aparılmalısını təmin edilməlidir.

Pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti zamanı malların (işlərin, xidmətlərin) alıcılarına onların tələbinə əsasən NKA-nın çeki ilə yanaşı, elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası təqdim edilməlidir.

# Maliyyə sanksiyaları barədə

**Topdansatış fəaliyyəti istisna olmaqla nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə, yəni:**

- Nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən) əhali ilə pul hesablaşmalarının aparılmasına;
- Vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına;
- Qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq edilmiş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına;
- Alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə, ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə;
- Nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə.

**Vergi ödəyicisinə aşağıdakı məsuliyyət tədbirləri tətbiq edilir:**

Təqvim ili ərzində belə hallara:

- Birinci dəfə yol verildikdə 1.000 manat;
- İkinci dəfə yol verildikdə 3.000 manat;
- Üç və daha çox dəfə yol verildikdə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Qeyd: Göstərilən maliyyə sanksiyası belə hala birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq olunduqdan sonra həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı tətbiq edilir.

1195

AZ1073, Azərbaycan, Bakı,
Landau küçəsi, 16
**Tel.:** +994 12 403 89 70
**Faks:** +994 12 403 89 71
**E-poçt:** office@taxes.gov.az
**www.taxes.gov.az**